

***Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək.***

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

# Heydər Əliyev irsi Vətənə sədaqət nümunəsidir

***Tarixi şəxsiyyətlər xalqını dünyaya böyük sevgilərlə tanıdır və ona ehtiramlar qazandırır. Müdrik liderlər öz xalqının sabaha yolunu tarixin axarına yönəldə bilir. Bu tarix xalqın tarixidir, dövlətçiliyin tarixidir, dövlətin tarixidir. Ona görə hər birimizin yaşamalı və yaşatmalı olduğumuz tarixdir. Biz tarixi də yaşadırıq, tarixi yaradanları da. Heydər Əliyev belə tarixi şəxsiyyətlərdən idi. Tarixi şəxsiyyətlərin hər kəlamı yaşarı kəlamdır, xalqın sabahına düşən işıqdır. Heydər Əliyev deyirdi: "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!". Bu, tarixi qürurdur...***

Ulu öndər Heydər Əliyevin Sovetlər dönəmində respublikamıza rəhbərliyi dövründə fəaliyyəti azərbaycanlı gənclərin milli qürurunun, milli heysiyyətinin mənəvi dəyərlər əsasında formalaşmasını təmin edirdi.

Böyük tarixi şəxsiyyətin milli dövlətçiliyin ideya-siyasi əsasları Azərbaycana rəhbərlik etdiyi illərdə azərbaycançılıq ideologiyasına söykənirdi. Sovetlər dönəmində müttəfiq respublikanı belə bir ideologiya əsasında idarə etmək böyük risk, güclü, dönməz məntiq, natiqlik qabiliyyəti və digər bu kimi dəyərlər tələb edirdi. Mərkəzin imperiyanın mənafelərinə sığışmayan tədbirlərə görə "niyə?"ləri güclü məntiq, güclü natiqlik qarşısında aciz olurdu. Ona görə də Azərbaycanın dinamik inkişafı digər müttəfiq respublikalardan fərqlənirdi.

Bakıda İttifaq miqyaslı sənaye müəssisələrinin yaradılması respublikanın iqtisadi potensialının yüksəldilməsinə xidmət etməklə, minlərlə vətəndaş üçün yeni iş yerləri idi. Ozon zavodu, Məişət Kondisionerləri zavodu, Elektron Hesablama Maşınları zavodu, Dərin Özüllər Zavodu, Radio zavod... Azərbaycana həm İttifaq daxilində, həm də beynəlxalq miqyasda nüfuz qazandırırdı – Bakı tanınırdı, Azərbaycan tanınırdı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycan ədəbiyyatı və incəsənətinin, bütövlükdə, milli mədəniyyətimizin böyük hamisi idi. İmperiya xislətinin repressiyasına məruz qalmış Hüseyn Cavid uzaq Sibirdə – İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndində dəfn edilmişdi. Böyük şairin nəşinin Azərbaycana gətirilməsi Azərbaycan ədəbiyyatına, azərbaycançılıq məfkurəsinə böyük sədaqətin təsdiqi kimi tarixləşdi.

Bakıda Nəriman Nərimanovun, Nəsiminin, Cəfər Cabbarlının heykəllərinin qoyulması da bu amalın təzahürü idi.

Ulu öndərin Azrbaycana sevgisinin dünyəvi, bəşəri zəmanəti böyük şair Səməd Vurğunun "Azərbaycan" şeirindən sonsuz sevgilərlə dediyi misralardır:

***Mən bir uşaq, sən bir ana,***
***Odur ki bağlıyam sana.***
***Hankı səmtə, hankı yana***
***Hey uçsam da yuvam sənsən,***
***Elim, günüm, obam sənsən...***

Böyük tarixi şəxsiyyətin siyasətinin başlıca istiqamətləri Azərbaycanın sabahının bütün sahələrdə təmin edilməsini əhatələyirdi. O illərdə azərbaycanlı gənclərin hərbi xidməti ilə bağlı mövcud vəziyyəti nizami ordu quruculuğunun gələcəyinə istiqamətləndirmək məqsədi ilə onların SSRİ-nin ali hərbi məktəblərində təhsil alması, zabit kimi xidmət etməsi ideyasını gerçəkləşdirdirirdi. Bununla bir sırada Bakıda ibtidai hərbi məktəbin açılmasına da nail oldu: Azərbaycançılıq ideologiyasının təntənəsi kimi böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci il iyulun 20-də "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK bürosu qərar qəbul etdi. Moskvanın ciddi etirazlarına baxmayaraq hərbi məktəb açıldı. Məktəbə Sovet İttifaqının güllələdiyi böyük sərkərdə, diviziya komandiri Cəmşid Naxçıvanskinin adı verildi. Məktəb 1971-ci ilin noyabrında açıldı. Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev hərb tariximizdə müstəsna əhəmiyyəti olan məktəbin açılışında iştirak etdi. Bu məktəbin məzunlarından yüzlərlə zabit Birinci Qarabağ müharibəsində də, Vətən müharibəsində də rəşadətlə vuruşdu, onlarca məzun Azərbaycanın ali mükafatlarına layiq görüldü...

Ən böyük azərbaycanlı kimi tanınan və sevilən, "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" – deyən dahi şəxsiyyət Heydər Əliyev həm də Azərbaycan dilinin böyük hamisi idi. Əvvəlki konstitusiyalardan fərqli olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında dövlət dili Azərbaycan dili qəbul edildi. Sovet İttifaqının siyasi təzyiqləri dövründə belə bir cəsarət indi də heyrətləndirici səviyyədə qürur doğurur. Bu qürur azərbaycançılıq qürurudur...

Azərbaycanda milli azadlıq hərəkatının kükrəyişindən çəkinən imperiya görünməmiş cinayət törətdi. 19-dan 20-sinə keçən gecədə Bakıda, imperiya ordusu yerli əhaliyə qarşı vəhşiliklər etdi. Faciənin ertəsi günü – yanvarın 21-də Moskvada yaşayan böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyi qarşısında çıxış edərək cinayəti törədənlərin cəzalandırılmasını təkid etdi. Bu, böyük risk idi. Ulu öndər xalqımıza görə, Azərbaycanımıza görə bunu gerçəkləşdirdi...

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra dövlət idarəçiliyində yaranmış boşluq, səriştəsizlik respublikada baş qaldıran separatçılıq milli qarşıdurma yaratmışdı. Onda, 1993-cü ilin iyununda xalq israrlı təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Heydər Əliyevin Bakıya qayıdışı Qurtuluş Günü kimi tarixləşdi. Ulu öndər vətəndaş qarşıdurmasını aradan qaldırdı, respublikada əmin-amanlıq təmin edildi.

Həmin dövrdə sərhədyanı rayonlarda torpağı milislər, əhali, yaradılan ərazi ozünümüdafiə dəstələri qoruyurdu. Vahid komandanlıq olmadığına görə belə müdafiə sistemi təsirli və yetərincə deyildi. Nəticə etibarilə rayonların müdafiəsində yaranan boşluqlar işğala şərait yaradırdı.

Ulu öndər daxili sabitliyi təmin etdi, sərhədlərimizin etibarlı səviyyədə qorunması məqsədilə ərazi özünümüdafiə müdafiə dəstələrinin buraxılması haqqında sərəncam imzaladı. Bununla da orduda vahid komandanlıq yaradıldı. Ordunun silahlandırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində ciddi, gərəkli tədbirlər həyata keçirildi. Bu, qısa müddətdə ordumuzun nizami ordu kimi formalaşma mərhələsi oldu.

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində ümummilli lider Heydər Əliyev seçicilərin böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, ulu öndərin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitliyin təmin edilməsinin başlanğıcı oldu, respublikanın sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı.

Xalqın və ordunun torpaqlarımızın işğaldan azad ediləcəyinə inamını yüksəltmək məqsədilə hərbi əməliyyat keçirildi. Ali Baş Komandan Heydər Əliyevin sərkərdəliyi ilə 1994-cü il yanvarın 5-də başlayan Horadiz əməliyyatında ordumuz Füzuli rayonunun 20 Arazboyu kəndini, Horadiz qəsəbəsini, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad etdi. Bu qələbə sülh danışıqları baş tutmazsa, Azərbaycan Ordusunun hərbi əməliyyatlarının, qazanacağı qələbələrin başlanğıcı kimi tarixləşdi.

Ulu öndərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ön xətdə, səngərlərdə hərbi qulluqçularla görüşləri, söhbətləri, onlara dəyərli tövsiyələri, hərbi xidmətdə fəqlənənləri təltif etməsi şəxsi heyətin mənəvi-psixolioji hazırlığını nəzərəçarpacaq dərəcədə yüksəldirdi. Bu yüksəliş ordu quruculuğunun mühüm tərkib hissələrindən biri oldu, ordumuz ni-zami ordu kimi formalaşdı.

1994-cü il mayın 12-də cəbhədə atəşkəs razılaşmasından sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də sosial həyatın bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri tədbirlər həyata keçirildi. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq, sabitlik yarandı, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş şərait yaradıldı, genişmiqyaslı islahatlara başlandı. Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizlərinin açılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi layihələri həyata keçirildi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. "Əsrin müqaviləsi" kimi tarixləşən bu saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı. Azərbaycanın dünya dövlətləri arasında həm siyasi, həm də iqtisadi mövqeyi möhkəmləndi.

1995-ci il noyabrın 12-də keçirilən referendumla müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul edildi. Zaman keçdikcə demokratik yolla prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Qanunvericilik sahəsində aparılan hüquqi islahatlar nəticəsində şəxsiyyət azadlığına və toxunulmazlığına təminat yaradıldı. Siyasi plüralizm, söz və vicdan azadlığı üçün heç bir maneə qalmadı, mətbuatda senzura götürüldü. Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edildi. Siyasi-iqtisadi və sosial-mədəni həyatın bütün sahələrində Avropa Şurasının tələbləri baxımından dəyişikliklərə əsaslı zəmin yaradıldı. Azərbaycan 2000-ci il yanvarın 25-də Avropa Şurasına üzvlüyə qəbul olundu.

Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəqli kəməri olan Bakı – Tbilisi – Ceyhan kəməri də ulu öndərin gördüyü böyük işlərdəndir...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev demişdir ki, bütün varlığı ilə Vətəninə və xalqına qırılmaz tellərlə bağlıdır: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək". Bu bağlılıq Azərbycana, onun sabahına sədaqət idi...

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi davamçısını yetişdirdi. Dahi rəhbər 2003-cü ilin oktyabrında xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu inam gerçəkləşdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərkərdəliyi ilə Vətən müharibəsi zəfərlə başa çatdı və beləliklə, ulu öndərin arzuları gerçəkləşdi...

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev haqqında deyir: "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider olmuşdur".

Müasir Azərbaycanın dövlətçiliyinin memarı olan böyük tarixi şəxsiyyət Heydər Əlyevin irsi "Mən azərbaycanlıyam!" deyənlərin hamısının ömründən keçir. Belə ömürləri böyük tarixi şəxsiyyətlər yaşayırlar...

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***